**NKA-ların e-qeydiyyatı davam edir**

İyun ayının 1-nə 15226 NKA elektron qaydada qeydiyyata alınmışdır

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına əsasən, elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət strukturlarının qarşısına bir sıra vəzifələr qoyulmuş və müvafiq tapşırıqlar verilmişdir. Vergilər Nazirliyi qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək, ölkədə sahibkarlığın inkişaf etdirilməsi, daha əlverişli biznes mühitinin formalaşdırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi istiqamətində əhaliyə göstərilən elektron vergi xidmətlərinin çeşidini artıraraq əhatə dairəsinin genişləndirilməsi sahəsində bir sıra tədbirlər və layihələr həyata keçirir. Bu istiqamətdə görülən işlər nəticəsində elektron ödəniş sisteminə keçid təmin edilmiş, fiziki və hüquqi şəxslərin elektron qeydiyyatına başlanmışdır.

Ölkədə şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində atılan mühüm addımlardan biri nəzarət-kassa aparatlarının uçota alınması və uçotdan çıxarılmasının tam elektronlaşdırılmasıdır. Bununla əlaqədar «Vergi orqanlarında vergi ödəyicilərinin uçotunun aparılmasına dair Metodiki Göstəriş»lərə dəyişikliklər edilmişdir.

Onu da qeyd edək ki, ölkədə nağdsız hesablaşmalarla yanaşı, nağd hesablaşmalara da nəzarətin gücləndirilməsi baxımından NKA-ların qeydiyyatının elektronlaşdırılmasını vacib məqamlardan hesab etmək olar.

NKA-ların qeydiyyatının elektronlaşdırılması nəticəsində vergi ödəyicisi və ya müqavilə əsasında vəkil olunmuş STXM (Servis Texniki Xidmət Mərkəzləri) tərəfindən internet üzərindən kassa aparatının qeydiyyata alınması ilə bağlı ərizə məlumatları sistemə daxil edilir və proqram tərəfindən avtomotik şəkildə onların düzgünlüyü yoxlanılır. Sistem tərəfindən, ilk növbədə, NKA-nın quraşdırıldığı təsərrüfat subyekti üzrə vergi ödəyicisinin uçotda olub-olmaması, NKA-nın markasının müvafiq dövlət reyestrinə daxil edilib-edilməməsi, həmin NKA-nın digər obyektlərdə qeydiyyatda olub-olmaması, POS-terminal quraşdırılması məqsədəmüvafiq hesab edilən obyektlərdə POS-terminalın quraşdırılıb-quraşdırılmaması, vergi ödəyicisi hüquqi şəxs olduqda onun rəhbəri haqqında hər-hansı məlumatın olub-olmaması yoxlanılır. Bu şərtlərdən hər hansı biri düz olmazsa, bu barədə vergi ödəyicisinin ekranına müvafiq mesajlar verilir. Ərizə yoxlanılarkən uyğunsuzluq aşkar edilmədikdə NKA qeydiyyata alınır və iki gün ərzində NKA-nın qeydiyyata alınacaq ünvanda vergi əməkdaşı tərəfindən plomblanması həyata keçirilir. Bundan sonra vergi ödəyicisinin elektron qutusuna avtomatik olaraq qeydiyyat vərəqəsi göndərilir. Ərizə STXM tərəfindən təqdim edildikdə, digər sənədlərlə yanaşı, vergi ödəyicisi ilə bağlanmış müqavilə də əlavə olunur. Qeyd etmək lazımdır ki, NKA-ların ucotunun elektronlaşdırılması nəzarət-kassa aparatlarının qeydiyyatı prosedurlarını xeyli sadələşdirmişdir. Əvvəllər ödəyici ərizə ilə müraciət etdikdən sonra NKA 2 gün ərzində qeydiyyata alınır, qeydiyyat vəsiqəsinin alınması və kassa aparatının plomblanması üçün yenidən vergi orqanına gəlməli olurdu. Bundan başqa, NKA-nın plomblanması üçün 3 gün tələb olunurdu. NKA-ların qeydiyyatı sahəsində həyata keçirilən yenilik nəticəsində kassa aparatının qeydiyyatına sərf edilən vaxt 15-20 dəqiqəyə qədər azalmışdır. Bundan başqa, NKA-ların elektron qeydiyyatı zamanı vergi ödəyicisinin vergi orqanına gəlməsinə ehtiyac qalmır, qeydiyyat sənədlərinin düzgünlüyü sistem tərəfindən yoxlanılır. Bununla da NKA-ların elektron qeydiyyatı həm vergi ödəyicilərinə, həm də vergi orqanlarına vaxt və maddi resurs sərfiyyatının azaldılmasına imkan verir, həmçinin şəffaf qeydiyyat prosedurlarının aparılmasını təsbit edir.

Arzu İBRAHİMOVA